# İdmançılarımızın uğurları

***IV İslam Həmrəyliyi Oyunlarında "Qəbələ" İdman Klubunun təmsilçilərinin də payı olub. 7 idman növündə yığmamızın heyətində yer alan 18 təmsilçimiz komanda yarışında qazanılan medallar da nəzərə alınsa, 19 mükafata yiyələnib. Bunlardan 8-i qızıl, 9-u gümüş, 2-si bürüncdür.***

"Qəbələ"ni İslam Həmrəyliyi Oyunlarında təmsil edən 4 boksçunun hamısı finala qədər irəliləyib. Bu idmançılardan Cavid Çələbiyev (60 kq) qızıl, digər üç boksçumuz - Tamerlan Abdullayev (69 kq), Kamran Şahsuvarlı (75 kq), Rauf Rəhimov (81 kq) gümüş medala yiyələnib.

Klubumuz cüdo yarışlarında da 4 idmançı ilə təmsil olunub. Onlardan ikisi fərdi yarışlarda qüvvəsini sınayıb. Həm Aişə Qurbanlı (48 kq), həm də Kifayət Qasımova (57 kq) qadınların yarışında finala qədər irəliləyərək, həlledici qarşılaşmada uduzduğundan gümüş medala sahib çıxıb. Kifayət həm də yığmanın tərkibində gümüş medal qazanmağa müvəffəq olub. Digər iki cüdoçumuz - Rüfət İsmayılovla Uşanqi Kokauri yalnız kişilərdən ibarət millinin heyətində tatamı üzərinə çıxıb. Onlar yığmanın heyətində qızıl medala yiyələniblər. Bununla da 4 cüdoçumuz 5 medal - 2 qızıl və 3 gümüşə sahib olub.

Kifayət Qasımova kimi daha bir qadın idmançımız - Nurlana Cəfərova da yarışlarda iki dəfə fəxri kürsüyə qalxıb. Atıcılıqda dəqiqliyini sınayan təmsilçimiz həm fərdi, həm də qarışıq komanda halında dairəvi stenddə fərqlənib. Nurlana iki dəfə gümüş mükafatçı olmağı bacarıb. Komanda yarışında onunla cütlük təşkil edən Emin Cəfərov da "Qəbələ"nin atıcısı kimi gümüş medalçı olub.

Taekvondoçularımız da yarışdan mükafatsız ayrılmayıb. Bu idman növündə iki təmsilçimiz iki medal qazanıb. Milad Beiqi Harçeqani (80 kq) bütün rəqiblərinə qalib gələrək, öz çəki dərəcəsində də hamıdan güclü olub. Məhəmməd Məmmədov (63 kq) isə yarımfinalda məğlub olduğundan bürünc medalla kifayətlənib.

Karatedə iki idmançı ilə təmsil olunan "Qəbələ"yə çempionluq sevincini Rafael Ağayev (75 kq) bəxş edib. Beşqat dünya çempionu İslam Həmrəyliyi Oyunlarında ikisi qızıl olmaqla 3 dəfə mükafat əldə edib. Niyazi Əliyev (67 kq) isə bu dəfə mükafatçılar sırasında düşə bilməyib.

Uşidakı yeganə təmsilçimiz Pərviz Abdullayev (75 kq) də hesabına növbəti uğuru yaza bilib. O, turnirin bürünc mükafatçısı olub.

23 yaşadək futbolçulardan ibarət ölkə yığmasının uğurunda da "Qəbələ"lilərin payı olub. Üç futbolçumuz - Rəşad Sadiqov, Tellur Mütəllimov və Elvin Camalov İslam Həmrəyliyi Oyunlarının çempionu adını qazanıb.

**✍Elçin OSMANOV,**
**rayon gənclər və idman idarəsinin aparıcı məsləhətçisi.**

# Bakı birinciliyində cüdoçularımız 3 qızıl,1 gümüş medal qazanıb

23 yaşadək gənc cüdoçular arasında açıq Bakı birinciliyinə yekun vurulub. Yarışda "Qəbələ" İdman Klubunun təmsilçiləri də çıxış ediblər. Komandamızın üzvləri birincilikdən 4 medalla ayrılıblar. Cüdoçularımız 3 qızıl və 1 gümüş mükafata sahib olublar. Yarışın ilk günündə tatami üzərinə çıxan Rəşad Yelkiyev (60 kq) bütün rəqiblərinə qalib gəlməklə, fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Turnirin ikinci günündə isə 100 kq çəki dərəcəsində "Qəbələ" idmançıları finalda üz-üzə gəliblər. Bu dueldə Vasif Şərbətli İmran Yusifovdan güclü olub. Komandamıza daha bir çempionluğu +100 kq çəki dərəcəsində qüvvəsini sınayan Vüsal Orucov qazandırıb.

**✍ Tural BAĞIROV.**

## Maraqlı sətirlər

# Özünü bərpa edə bilən material hazırlanıb

Amerikalı alimlər zədələnən zaman özünü bərpa edə bilən material hazırlayıblar.

Yeni maddə elektrik keçirmək xüsusiyyətinə malik olduğundan onu smartfonlar üçün displey kimi də istifadə etmək mümkündür.

Kəşfin müəllifləri Kaliforniya Universitetinin bir qrup alimidir. Qrupun rəhbəri Çao Van bildirib ki, material dartıldığı zaman onun uzunluğu 50 dəfə artır, parçalandıqda isə hissələri bir sutkadan gec olmayaraq yenidən bərpa olunur.

Yeni işləmənin əsasını ion-dipol əlaqəsi prinsipi təşkil etdiyinə görə, molekullar bir-birini cəzb edərək cızıq və parçalanmaları aradan qaldırır.

Çao Vanın sözlərinə görə, üç ildən sonra özlərini bərpa edən materiallar sənayedə, xüsusilə smartfonların istehsalında kütləvi istifadə olunacaq.

Qeyd edək ki, bundan əvvəl də alimlər tərəfindən xüsusi maye əsaslı özünü bərpa edən material hazırlanıb. Həmin materialdan kosmik sahədə baş verən qəzalar zamanı istifadə olunması nəzərdə tutulub.

## Xalq təbabəti

# İtburnu haqqında bilmədiklərimiz

İtburnu müalicə bitkisi kimi qədimdən məlumdur. Təbabətdə qurudulmuş meyvələrindən, həblərindən və maye ekstratından istifadə edilir. İtburnunun müalicəvi əhəmiyyəti XVII əsrdən məlumdur. XV-XVI əsrlərdə bəzi ölkələrdə onun meyvələri fövqəladə dərman kimi yalnız məşhur adamlara xüsusi icazə ilə verilirdi. Hazırda itburnu meyvəsindən təbabətdə C vitamininin mənbəyi kimi geniş istifadə olunur.



C vitamini orqanizmdə gedən proseslərdə fəal iştirak edir. C vitamininin orqanizmdə çatışmazlığı ilə əlaqədar itburnu meyvələri aşağıdakı xəstəliklərdə çay, sirop, ekstrakt və toz (poroşok) şəklində qəbul edilir:

- qanazlığında və orqanizm taqətdən düşdükdə (zəiflədikdə);
- aterosklerozda;
- zəifləyəndə və yoluxucu xəstəliklərdə (skarlatina, difteriya, pnevmaniya, göy öskürək və s).
- ləng sağalan yaralarda;
- sümüyün bitişməsində;
- qanaxmada;
- böyrək daşı xəstəliyində;
- qaraciyərdə daş olanda və s.

May ayının sonu, iyun ayının əvvəllərində itburnu kolları ağ, çəhrayı rəngli ətirli çiçək açır. Həmin çiçəklərin dəmləməsindən də uşaqlarda öskürəyə qarşı və qızdırma salan vasitə kimi istifadə edrlər. Rayonumuzda meşə ətrafları, çaylaqlar bu qiymətli bitki ilə zəngindir.


# Qəbələ Qızılbalıqyetişdirmə Zavodu balıq yeminin satınalınması üzrə katirovka sorğusu elan edir

Sorğular **20 iyun 2017-ci il tarixədək** qəbul olunur.
**Tel:** 024 202-11-33.

**Katirovka komissiyası.**


# İTMİŞDİR

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 may 1998-ci il tarixli 10 saylı qərarı ilə Tüntül kənd sakini **Mustafayev Arzu Məmmədiyar oğluna və ailə üzvlərinə** verilmiiş JN seriyalı 125 nömrəli (kod 40616018) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 may 1998-ci il tarixli 10 saylı qərarı ilə Məmmədağalı kənd sakini **Aslanov Rasim Əsgər oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 0056 nömrəli (kod 40603048) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsfız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 25 iyun 1998-ci il tarixli 11 nömrəli qərarı ilə Bum qəsəbə sakini **Ağamoğlanov Cavanşir Ələsgər oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 175 nömrəli (kod 40600038) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 28 oktyabr 1998-ci il tarixli 19 saylı qərarı ilə Vəndam qəsəbə sakini **Rəhimov İldırım Seyfulla oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 1937 A nömrəli (kod 40600048) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Hacıalılı Bələdiyyəsinin perspektiv inkişaf fondundan Bakı şəhər sakini **Sultanova Axirə Bəhmən qızına** yaşayış evi tikmək üçün alqı-satqı yolu ilə ayrılmış 0,11 ha torpaq sahəsinə aid bələdiyyənin **5 mart 2006-cı il tarixli 3 nömrəli qərarı, sahənin yerquruluşu planı, torpağın alqı-satqısına dair 5 mart 2006-cı il tarixli 238 nömrəli akt və 2 mart 2006-cı il tarixdə bələdiyyənin xəzinəsinə ödənilən bir min dörd yüz otuz manata dair kassa mədaxil orderi** itdiyi üçün etibarsız sayılır.


QƏBƏLƏ
Qəbələ rayonunun ictimai-siyasi qəzeti

qəzetinə

2017-ci ilin ikinci yarısı üçün abunə yazılışı davam edir.

Yarımillik abunə qiyməti 15 manatdır.

Abunə qəzetin «Kapitalbank»ın Qəbələ filialındakı hesabına köçürmə və ya redaksiyada nəqd ödəmə yolu ilə aparılır.

Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.


# ALLAH RƏHMƏT ELƏSİN!

Rayon mərkəzi xəstəxanasının kollektivi iş yoldaşları **Azadə Ağayevaya** atası

**MİRAĞA MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.

Rayon mərkəzi xəstəxanasının kollektivi iş yoldaşları **Sədaqət Rüstəmovaya** anası

**SUMAYƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.


«QƏBƏLƏ» qəzetinin reklam xidməti

205-19-14, 205-15-56



Redaktor
Varis Yaqubov

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

*Məsul katib*
*Qüdrət Səmədov.*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.

*Dizayner Rais Rəşidov*

Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.

*Tiraj 1700*